2017-ci ilin yanvar ayında muxtar respublikada fəaliyyət göstərən müəssisə və təşkilatlar, fiziki şəxslər tərəfindən aparılan ticarət əməliyyatları nəticəsində 24681,3 min ABŞ dolları həcmində xarici ticarət dövriyyəsi yaranmışdır. Xarici ticarət dövriyyəsinin 23830,6 min ABŞ dollarını yaxud 96,6 faizini ixrac, 850,7 min ABŞ dollarını yaxud 3,4 faizini idxal təşkil etmişdir.

İdxalın həcmi son bir il ərzində 50,1 faiz azalmış, ixracın həcmi isə 1 faiz artmışdır. Ümumilikdə bu dövr ərzində 22979,9 min Amerika Birləşmiş Ştatları dolları həcmində müsbət saldo yaranmışdır.